## TARİXDƏ İZ BURAXANLAR: SƏMƏD VURĞUN

**Məşhur şair Səməd Vurğun 21 mart 1906-cı ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində bəy nəslinə mənsub bir ailədə anadan olub. Atası Yusif ağa, anası Məhbub xanımdır. Onun 6 yaşı olarkən anası Məhbub xanım 28 yaşında vəfat edib. Səməd Vurğun atası Yusif ağanın və ana nənəsi Aişə xanımın himayəsində böyüyüb. Aişə xanım görkəmli Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqifin nəslindən idi. Şair uşaqlıq illərini doğma kəndində keçirib, ibtidai təhsilini kənddəki məktəbdə alıb.**

Səməd Vurğun gənc yaşlarında hər şeylə maraqlanan, həssas, çox qətiyyətli, möhkəm iradəli, hazırcavab olub. Təhsilə başladığı ilk günlərdən ondakı fitri istedad özünü göstərib. Bu illərdə o, Vaqif, Vidadi və Sabir yaradıcılığı ilə yanaşı, Puşkin və Lermontovun əsərləri ilə də tanış olub. Beləcə poeziya get-gedə şairin bütün varlığına hakim kəsilib. Gənc şair öz xalqını, vətənini sevdiyi üçün özünə "Vurğun" təxəllüsünü götürüb. Digər bir versiyaya görə isə sevdiyi qıza ünvanladığı şeirləri Vurğun təxəllüsü ilə imzalamış və beləcə davam etmiş, tanınmışdır.

1929-cu ildə Səməd Vurğun Moskva Universitetinin ədəbiyyat fakultəsinə daxil olub. Moskvadakı təhsil illərində o, fəal yaradıcılıqla da məşğul olub, yazdığı şeirlər 1930-cu ildə cap olunan "Şairin andı" adlı kitabında toplanıb.

1930-1940-cı illər Səməd Vurğun istedadının çiçəklənməsi və yüksəliş dövrü olub. 1934-cü ildə şairin "Könül dəftəri" və 1935-ci ildə "Şeirlər" adlı kitabı nəşr olunub. Bu dövrdə şair, Azərbaycan poeziyasının dilini bir çox əcnəbi sözlərdən təmizləyərək, Azərbaycan ədəbiyyatını və daramaturgiyasını yeni əsərlər hesabına zənginləşdirib. Onun "Azərbaycan" şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. Bu şeirdə şair öz vətəninin qədim tarixini, təbii gözəlliyini, nemətlərini, xalqın xeyirxahlığını, açıqürəkliyini və qonaqpərvərliyini tərənnüm edib.

Səməd Vurğun 1937-ci ildə özünün ölməz dram əsərini - "Vaqif"i yazıb. Şair bu əsərində Molla Pənah Vaqifin faciəli həyatını, şair böyüklüyünü, insanlıq kamilliyini ustalıqla, məhəbbətlə əks etdirib. Bu dramına görə Səməd Vurğun 1941-ci ildə "Stalin mükafatın"na layiq görülüb.

1941-ci ildə Səməd Vurğun Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında yazdığı mənzum dramında böyük vətənpərvərlik duyğularının tərənnümü xüsusi məna kəsb edib. O, 1942-ci ildə bu əsərinə görə ikinci dəfə "Stalin mükafatı"na layiq görülüb.

1943-cü ildə ABŞ-da keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində şairin yazdığı "Ananın öyüdü" şeiri çox yüksək qiymətləndirilib və dünya ədəbiyyatında bu mövzuda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap edirilərək hərbçilər arasında yayılıb. Müharibə illərində vətənpərvər şairin atəşli səsi ön cəbhədə daha əzəmətli səslənirdi.

Şairin yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi bir yer tutur. Müharibənin başladığı gün Səməd Vurğunun yazdığı:

Bilsin ana torpaq, eşitsin Vətən,

Müsəlləh əsgərəm mən də bu gündən

misraları şairin xalq və Vətən qarşısında andı idi. Bu misralar təkcə şairin deyil, bütün Azərbaycan poeziyasının müharibə dövründəki yaradıcılıq proqramına, yaradıcılıq devizinə çevrilmişdi. Onun yazdığı "Ukrayna partizanlarına" şeirinin mətnləri təyyarədən Ukrayna meşələrinə səpələnərək partizanlara çatdırılıb.

Müharibədən sonrakı illərdə Səməd Vurğun görkəmli ictimai xadim kimi dünyada sülhün bərqərar olması işində fəal iştirak edib. O, SSRİ Ali Sovetinin deputatı kimi 1947-ci ildə görkəmli ədəbiyyat və mədəniyyət xadimləri ilə birgə Londona səfər etdikdə, orada keçirdiyi görüşlərdə sülhü bütün insanlığa təlqin edib. O zamankı SSRİ məkanında Səməd Vurğunun böyük nüfuzu var idi. O, müxtəlif illərdə SSRİ-nin ən yüksək orden və medalları ilə təltif edilib, sovet xalqlarının sevimli şairi olub.

Həyatının son illərində yazdığı şeirləri onun yaradıcılığının yeni mərhələsini təşkil edir. Onlar rəhgarəngliyi və poetikliyi ilə seçilən şeirlərdir. Bu şeirlər həyata bağlılıq, insanların dostluq və xeyirxahlıq kimi keyfiyyətlərini əks etdirməklə yanaşı, şairin vətən və xalq qarşısındakı müqəddəs borcunun ifadəsi idi.

Səməd Vurğun müasir Azərbaycan poeziyasının böyük şairidir. O, mürəkkəb və uzun bir yaradıcılıq yolu keçib. Əlli illik ömrünün otuz ildən çoxunu şeirə, sənətə həsr edən şair vətəndaşlıq pafosu ilə dolu lirik, satirik şeirlər və poemalar yazıb, xalq qəhrəmanlığı ruhunda dramlar yaradıb. Dahi şair sənət, ədəbiyyat və mədəniyyətin müxtəlif sahələrinə aid ağıllı, tənqidi-publisist məqalələrin müəllifidir. Diqqətəlayiq cəhət odur ki, istər yaradıcılığın, istərsə də ictimai fəaliyyətin bütün sahələrində Səməd Vurğun istedadı həmişə parlaq şəkildə özünü göstərib. Onun adı bütün dünyada müasir Azərbaycan şeirinin, dramaturgiyasının şərəf və şöhrət rəmzinə çevrilib.

Yüksək ideya və bədii keyfiyyətlərinə görə böyük sənətkarın əsərlərinə maraq gündən-günə artıb və güclənib. Qeyri-adi yaradıcılığı, qabaqcıl fəlsəfi dünyagörüşü ilə doğma Azərbaycanın həyatını dərindən əks etdirən şair qəhrəman fəhlə və kəndlilərin, mühəndis, müəllim, həkim, şəfqət bacısı, rəssam, bəstəkar və əsgərlərimizin parlaq surətlərini yaradıb. Yüksək vətənpərvərlik duyğuları, insaniyyəti, humanizmi, xalqlar dostluğu, təmiz ailə məhəbbəti Səməd Vurğunun şeirlərinin tərkib hissəsidir. O, həyatı sevən, əsrin müsbət yaradıcı ruhunu, xalqın böyük arzu və əməllərini tərənnüm edən bir şair idi.

Müsbət insan surətləri və ideallarının Səməd Vurğun şeirində parlaq və təsirli çıxmasına səbəb odur ki, bu şeirlərdə həyat mürəkkəbliyi ilə, insan hisslərinin, insan ehtiraslarının rəngarəngliyi və ziddiyyətlərilə təsvir olunur. Səməd Vurğun insan təbiətinin nəcib və yüksək meyllərini tərənnüm edərkən həmişə realist ədəbiyyatın tələblərinə sadiq qalıb. Yəni o, insanı müqəvva, cansız bir mələk kimi yox, canlı və ehtiraslı ictimai varlıq kimi təsvir edib. Həyatı hamar və düz bir axın kimi yox, müxtəlif meyllərin, qızğın ehtirasların, fikir və əqidələrin mübarizəsi kimi göstərib.

Səməd Vurğun insanpərvər bir şair idi. Bütün bəşəriyyətin səadət arzuları ilə yaşayırdı. Müasir yazıçılarımız arasında həyatın yaramazlıqlarına qarşı heç kəsin qəzəbi Səməd Vurğunun qəzəbi qədər güclü deyildi. Səməd Vurğun yeni həyatın əxlaqı və qaydalarının düşmənlərini, cəmiyyətimizin duru suyunu bulandırmağa çalışan xainlərini böyük qəzəblə ifşa edirdi. O, döyüşən, mütəfəkkir bir şair kimi həyatın dərinliklərinə baxır, daha artıq yaşamaq imkanı olan mərəzləri və mərəz gəzdirənləri görürdü. Oğru, yalançı, şöhrətpərəst, özündənrazı və özü üçün yaşayan məsləksiz, vətənsiz adamları lənətlə yad edirdi. Onun satirik şeirlərində insanı qüssələndirən, ürəyi darıxdıran mənfi adamlar və mənfi hallar təsvir olunsa da, oxucunun ürəyində uca, nəcib duyğular oyanır. Dahi şairin bu satirik şeirlərinin əsasında insana, vətənə, xalqa olan böyük və sönməz məhəbbəti durur. Bu məhəbbət "Azərbaycan", "Yadıma düşdü", "Şəfqət bacısı", "Körpünün həsrəti" və onlarla dillər əzbəri olan başqa şeirlərində tərənnüm edilib.

Səməd Vurğun poema janrının böyük yaradıcılarından biridir. Şairin poemalarının mövzusu olduqca genişdir. O, Azərbaycan xalqının qəhrəmanlıq keçmişindən, xalqlar dostluğundan, müstəmləkə xalqlarının azadlıq hərəkatından yazıb, xalqımızın mənalı və şirin əfsanələrindən də istifadə edib.

Bu geniş və zəngin mövzu "Ölüm kürsüsü", "26-lar", "Bəsti", "Buruqlar səltənəti", "Köhnə dostlar", "Muğan", "Zəncinin arzuları", "Zamanın bayraqdarı" kimi poemalarda canlı və zəngin bədii boyalarla işlənib. Böyük şair poemalarında təsvir etdiyi həyat hadisələrinə fəlsəfi məna verərkən, xəyaldan, idealist görüş və təsəvvürlərdən deyil, insan həyatı və varlığının obyektiv qanunlarından çıxış edir, bu həqiqətləri oxucularına aşılamağa, onları yanlış fəlsəfə və əqidələrin fəlakətindən qorumağa çalışır. Bu cəhətdən şairin "26-lar", "Zəncinin arzuları" və "Ölüm kürsüsü" poemalarında fəlsəfi fikirləri maraqlı və ibrətamizdir.

Azərbaycan ədəbiyyatı tarixində şeirlə xalq qəhrəmanlıq dramlarının yaradıcısı olan Səməd Vurğun milli dramaturgiya və teatrlarmızın qarşısında yeni yüksəliş yolları açıb. Dahi şair "Vaqif", "Xanlar", "Fərhad və Şirin" kimi yüksək bədiilik nümunəsi olan dramlar yazıb. Bu əsərlər xalqımızın qəhrəman keçmişindən danışır, Vətənə məhəbbətin əsasını təşkil edir. Xalqın yüksək arzu və istəkləri, nəcib insaniyyət duyğuları bu dramlarda əks olunub. "Vaqif" dramı bugünkü Azərbaycan dramaturgiyasının şah əsəridir. Böyük tarixi məzmunu olan bu əsərdə qüdrətli insan xarakterləri, bir-birinə zidd və barışmaz nəhəng qüvvələr çarpışır. Bu əsərdə gərgin mübarizə səhnələri bir-birini əvəz etdikcə böyük bir əsrin və xalqın həyatı parlaq şəkildə canlanır. "Vaqif" dramında Azərbaycan şeiri son dərəcə mənalı, obrazlı və təsirlidir. Vaqifə aid olan bir çox bədii keyfiyyətləri "Xanlar"da, "Fərhad və Şirin"də də görmək olar. Dahi şairin şeirləri kimi dramları da sadə dilli, təsirli və mənalı ifadələrlə əmələ gəlir. Onun səhnə əsərlərində həyat olduqca dolğun müxtəlif xarakterlərlə əks olunur.

1956-cı il mart ayının 21-də Səməd Vurğunun 50 yaşı tamam olur. Şairin yubileyinin keçirilməsinə hazırlıqlar çərçivəsində Azərbaycan SSR rəhbərliyi tərəfindən "Azərbaycanın xalq şairi" adı təsis edilir və ilk dəfə bu ada Səməd Vurğun layiq görülür. May ayının 12-də opera və balet teatrında SSRİ-nin ədəbi ictimaiyyətinin və xarici qonaqların iştirakı ilə şairin təntənəli yubiley gecəsi keçirilir. Yubiley təntənəsindən iki həftə sonra 1956-cı il may ayının 27-də şairin gözləri əbədi yumulur. May ayının 28-dən 30-na kimi şairin cənazəsi Azərbaycan Dövlət Filarmoniyasının binasında qoyulur. O günlər bütün Azərbaycan matəm içərisində idi. Üç gün xalqımız şairlə vidalaşmağa gəlir, izdihamlı insan axınının ardı-arası kəsilmirdi. Şair may ayının 30-da Bakıda Fəxri xiyabanda dəfn edilir.

Matəm günlərində şairin ailəsinin adına ölkəmizin bütün guşələrindən baş sağlığı teleqramları gəlirdi. Ürək ağrısı ilə yazılan belə teleqramların birində: "Təsəlliniz o olmalıdır ki, Səməd Vurğunun öldüyü gündən onun yeni həyatı - şair ölümsüzlüyü başlanır" - sözləri yazılmışdı. Bu həqiqət idi...

Azərbaycan şeirinin yaradıcılarından biri olan, əsərlərilə çoxmillətli sovet poeziyasının fondunu zənginləşdirən xalq şairi Səməd Vurğun qiymətli ədəbi irs qoyub gedib. Şairin poeziya və dram əsərləri Azərbaycan ədəbiyyatının inkişafında misilsiz rol oynayıb, xalqının həyatına və mənəviyyatına dərin köklərlə bağlanıb. O, bütün varlığı ilə doğma Azərbaycan xalqının adət və ənənələri ilə bağlı olan, xalqın ən gözəl sifətlərini hamıdan artıq duyan və hamıdan çox sevən bir sənətkar olub. Onun yaradıcılığı yalnız Azərbaycan xalqı üçün deyil, bütün sənət və həqiqət aşiqləri üçün qiymətli və əzizdir.

Biz bu tarixi şəxsiyyətimizin xidmətlərini həmişə yad etməyə borcluyuq.

Allah rəhmət eləsin.[1]

***Fazil Qaraoğlu,***
***professor***

[1] https://www.baki-xeber.com/medeniyyet/56777.html